**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANDA ORTA İXTİSAS PEDAQOJİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI (1920-1991-ci illər)

İxtisas: 5804.01 – Ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Vüsalə Şahruh qızı Qurbanova**

Pedaqogika üzrə fəlsəfə doktoru
elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi
**Fərrux Abbas oğlu Rüstəmov**

Rəsmi opponentlər: pedaqogika elmləri doktoru, professor
**Hümeyir Hüseyn oğlu Əhmədov**

pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Rəhimə Mahmud qızı Mahmudova**

pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Vidadi Paşa oğlu Bəşirov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurası

Dissertasiya Şurasının sədri: ________________ tarix elmləri doktoru, professor
**Cəfər Məmməd oğlu Cəfərov**

Dissertasiya Şurasının elmi katibi: ________________ pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Mələk Əlislam qızı Zamanova**

Elmi seminarın sədri: ________________ pedaqogika elmləri doktoru, professor
**Şəhla Qasım qızı Əliyeva**

## Tədqiqatin ümumi səciyyəsi

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan xalqının iqtisadi, elmi-mədəni və mənəvi potensialının formalaşmasında, yüksək intellektə, milli-bəşəri dəyərlərə, mənəvi-əxlaqi keyfiyyətlərə malik bir millət kimi formalaşmasında zəngin ənənələrə malik təhsil sistemi mühüm rol oynamışdır. Azərbaycanda maarifçilik və pedaqoji fikir böyük inkişaf yolu keçmiş, mütərəqqi ənənələrə malik tədris müəssisələri mövcud olmuşdur. Bu məktəblərin məzunları ayrı-ayrı dövrlərdə yaşasalar da qabaqcıl ideya, fikir və baxışları ilə elm və mədəniyyətin, təhsil və pedaqoji fikrin inkişafına yeni istiqamət vermiş, milli təfəkkürün ifadəçiləri kimi çıxış etmişlər. XX əsrdə bu proses daha sürətlə həyata keçirilmişdir. Ulu öndər Heydər Əliyev qeyd edirdi ki, xalqımızın tarixi taleyi elə imkan yaratmışdır ki, ötən yüzillikdə Azərbaycan köhnə dünyadan sürətlə qopmuş, elm, mədəniyyət, təhsil və intibah yolunu tutmuşdur. Elliklə maariflənməsini başa vurmuşdur. Kütləvi surətdə savadlanmaq, elmə, mədəniyyətə, təhsilə can atmaq Azərbaycan xalqının mənəviyyatını da, həyat tərzini də, xarici görünüşünü də dəyişmiş, onu inkişaf edən dünyaya qovuşdurmuşdur. Azərbaycan xalqı sözün həm həqiqi, həm də məcazi mənasında işıqlı, nurlu bir aləmə çıxmışdır... Azərbaycanın təhsili, məktəbləri XX əsrdə çox böyük nailiyyətlər əldə edib. Ümummilli lider Respublika gənclərinin I forumunda həmin dövrü xarakterizə edərək demişdir: "*1920-ci ildən 1991-ci ilədək Azərbaycanın həyatında xüsusi bir dövr olmuşdur. Azərbaycan müstəqil olmamışdır, ancaq Azərbaycan xalqı böyük inkişaf yolu keçmişdir*".[1]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təhsil tarixi ilə bağlı konseptual fikirləri diqqət cəlb edir. O demişdir: "*Azərbaycan təhsil tarixi hər birimizin fəxr etdiyi nailiyyətlərlə zəngindir. Azərbaycan müəllimləri tarix boyu təhsildə daim varisliklə novatorluğun, ənənə ilə islahatın vəhdətini öz fəaliyyətində əks*

[1] Müstəqil Azərbaycan Respublikasının gənclərinin birinci forumunda Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin çıxışı//"Azərbaycan məktəbi", 1996, №2, s.3.

*etdirmişlər*"[2] Tarixi araşdırmaların vəzifəsi müasir dövrün dərkinə kömək etməkdir. Elə bu səbəbdən də təhsil və pedaqoji fikir tarixinin sistemli tədqiqi keçən əsrin 30-cu illərindən tədqiqatçı alimlərin diqqət mərkəzində olmuşdur. Ən qədim dövrdən indiyə kimi Azərbaycanda təhsil və pedaqoji fikrin inkişaf istiqamətləri Əhməd Seyidov, Mehdi Mehdizadə, Hüseyn Əhmədov, Əliheydər Həşimov, Aben Kərimov, Ağahəsən Rzayev, İbrahim Mollayev, Sürəyya Əliyeva, Ellada Quliyeva, Əjdər Ağayev, Əmrulla Paşayev, Fərrux Rüstəmov, Rüfət Hüseynzadə, Hümeyir Əhmədov, Həsən Bayramov, Kamal Camalov tərəfindən doktorluq, Mərdan Muradxanov, Saleh Xəlilov, Əyyub Tağıyev, Zümrüd Axundova, Dilruba Mustafayeva, Əmir Tağıyev, Əsəd Yəqubi, İramin İsayev, Mircəfər Həsənov, Bəhruz Nəsirov, Sevinc Əzimova, Zemfira Mehdizadə, Zemfira Mehrəliyeva, Ədalət Cəlilov, Sahilə Orucova, Əli Adğözəlov, İsaxan İsayev, Tahir Kərimli, Aytən Qəhrəmanova, Nazilə Abdullazadə, Teyyubə Hüseynova tərəfindən fəlsəfə doktoru dissertasiyalarının predmetinə çevrilmişdir.

Təhsil tariximizin mühüm bir mərhələsini – Azərbaycanda orta ixtisas pedaqoji təhsilinin 1920-1991-ci illərdəki inkişaf istiqamətlərini araşdırmağı zəruri və vacib hesab etdik. Bu, iki aspektdən faydalıdır. Pedaqoji təhsil tariximizin çox mühüm bir mərhələsinin öyrənməsi mülki tariximizi zənginləşdirməklə yanaşı, həm də təkamül prosesi olan orta ixtisas pedaqoji təhsilinin dinamikasını müəyyənləşdirməyə, nəzəri-metodoloji və praktik istiqamətlərini analitik təhlil etməyə, inkişafının əsas xüsusiyyətlərini, müsbət və mənfi cəhətlərini eyni peşəkarlıqla tədqiq edib üzə çıxarmağa, səhv fikir və dolaşıqlıqlardan vaxtında azad etməyə, düzgün elmi qənaətləri daha da inkişaf etdirilməyə, pedaqoji təhsil sistemini mükəmməl bünövrə üzərində qurmağa kömək edə bilər. Azərbaycanda orta ixtisas pedaqoji təhsilin məzmununun müəyyənləşdirilməsində tarixilik, varislik, müasirlik və millilik prinsipinin gözlənilməsi, onun təşəkkülü və inkişafının əsas mərhələlərinin, xüsusiyyətlərinin müəyyənləşdirilməsi, bu sahədəki 70 illik zəngin təcrübənin ümumiləşdirilməsi, düzgün elmi qə-

[2] "Azərbaycan müəllimi" qəzeti, 26 sentyabr 2008

naətlərin inkişaf etdirilməsi ölkədə orta ixtisas təhsilli müəllim və tərbiyəçi kadrların hazırlanması konsepsiyasının yaradılmasında mühüm rol oynamaqla yanaşı pedaqoji kollec təhsilini mükəmməl bünövrə üzərində qurmağa kömək edə bilər. Bunun üçün də kompleks tədqiqatlara böyük ehtiyac var.

Araşdırmalar zamanı məlum oldu ki, Azərbaycanda sovet hakimiyyəti illərində orta ixtisas pedaqoji təhsil müəssisələrinin təşəkkülü və inkişafının bütün mərhələri peşəkarlıqla araşdırılmamış, tədqiq və təhlil olunmamışdır. Ə.Tağıyev orta ixtisas pedaqoji təhsil müəssisələrinin inkişafının 20-ci illər[3]. S.Bayramova[4] isə 1991-2006-cı illər mərhələsini tədqiqat predmetinə çevirmişdir. XX əsrin 30-80-ci illərində Azərbaycanda orta ixtisas təhsilinin inkişafı tədqiqatlardan təcrid edimişdir. Tanınmış pedaqogika tarixçisi Əyyub Tağıyevin 1953-cü ildə müdafiə etdiyi namizədlik (fəlsəfə doktoru) dissertasiyası 20-ci illərdə orta ixtisas pedaqoji təhsilin inkişafını öyrənmək baxımından maraq doğurmaya bilməz. Dissertasiyanın materialları nəşr edilmədiyindən həmin araşdırma elmi dövriyyəyə daxil edilməyib. Dissertasiyanın Azərbaycan Dövlət Pedaqoji Universitetinin kitabxanasında saxlanan makina nüsxəsi keyfiyyətsiz olduğundan oxumaq mümkün deyil. Böyüdücü vasitələrin köməyi ilə oxuduğumuz hissələrdən aydın oldu ki, əsər sovetoloji təhlil prinsipi ilə yazılmış, tədqiqatlar birtərəfli aparılmış, ciddi elmi məsələlərə siyasi mövqedən qiymət verilmiş, aprel çevrilişinə qədərki fakt və hadisələr təhrif edilmiş, xalqın min illər boyu yaratdığı təhsil-tərbiyə mədəniyyəti bilərəkdən "unudulmuş", fakt və hadisələr birtərəfli izah edilmişdir. Əsərin böyük bir hissəsi K.Marksın, F.Engelsin, V.İ.Leninin kapitalizmin və burjua təhsil-tərbiyə sisteminin tənqidindən, ÜİK(b)P MK-nın və Azərbaycan KP MK-nın bir-birinin ardınca qəbul etdiyi

---

[3] Tağıyev Ə.S. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra orta pedaqoji təhsilin inkişafı (1920-1935-ci illər). Pedaqoji elmlər namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilən dissertasiya. Bakı, ADPU, 1963,292 s.

[4] Bayramova S. Azərbaycan Respublikasının orta ixtisas pedaqoji təhsil müəssisələrində kadr hazırlığı (1991-2006-cı illər). Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən dissertasiyanın avtoreferatı. Bakı, ADPU, 2012, 26 s.

məktəb haqqında qanun, qərar və göstərişlərinin təbliğindən ibarətdir. Metodoloji yanaşma düzgün olmadığından xeyli təriflərə, səhv mülahizələrə yol verilmişdir. Bircə fakta diqqət yetirək. Ə.Tağıyev yazır: "*Azərbaycan xalqının qəddar düşmənləri, xarici kapitalistlərin satqın nökərləri hakimiyyət başına soxulmuş müsavatçılar az müddət sürən ağalıqları zaman ölkədə xalq maarifinin tənəzzülünə və müəllim kadrlarının dağıdılmasına səbəb oldular*".[5]Müəllifin fikrincə, müsavatçılar müəllimlələ qaba və kobud rəftar edir, onları döyürlər, söyürlər və hər cür təhqirlərə məruz qoyurdular. Müəllim üzərində çar çinovnikləri, yüzbaşı və kəndxudalar belə ağalıq etmirdilər. Dissertasiyada sovet dövründəki inkişafın konturları, müəllim kadrları hazırlığındakı uğurlarımız zəngin tarixi-pedaqoji irsimizin, təhsil-tərbiyə ənənələrimizin tənqidi üzərində qurulur. Belə təhlil və təqdimat üsulu yanlış olduğundan heç vaxt obyektivliyi və reallığı əks etdirə bilməz.

Azərbaycanda orta ixtisas pedaqoji təhsil müəssisələrinin təşəkkülü və inkişafının 1920-1991-ci illər mərhələsi tədqiqatımızın xronoloji hüdudlarını əhatə etməli olsa da, biz Azərbaycandakı ibtidai məktəblər üçün müəllim kadrları hazırlığında mühüm xidmətləri olan Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin və İrəvan Müəllimlər Seminariyasının fəaliyyətinə toxunmağı zəruri və vacib hesab etmişik. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda maarifçilik hərəkatının genişlənməsində, yeni tipli məktəblərin, dərsliklərin, pedaqoji mətbuat və uşaq ədəbiyyatı nümunələrinin yaradılmasında, xeyriyyə cəmiyyətlərinin təşkilində, yaşlıların və qadınların təhsilə cəlb edilməsində Qori Müəllimlər Seminariyasının 300-dək məzunu misilsiz xidmət göstərmişlər. İrəvanda fəaliyyət göstərən Müəllimlər Seminariyasının (1881-1918) azərbaycanlıların sıx yaşadığı İrəvan quberniyasında maarif və təhsil mühitinin yaradılmasında, pedaqoji kadr hazırlığında diqqətəlayiq nailiyyətləri olmuşdur. Həmin seminariyalar sovet dövründə (xüsusilə XX əsrin 20-ci illərdə)

---

[5] Tağıyev Ə.S. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra orta pedaqoji təhsilin inkişafı (1920-1935-ci illər). Pedaqoji elmlər namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilən dissertasiya. Bakı, ADPU, 1963, 292 s.

yaradılan pedaqoji məktəblər üçün baza rolunu oynamış, ilk illər məhz həmin seminariyaların tədris planlarından, nümunəvi əsasnaməsindən istifadə edilmişdir.

Araşdırma zamanı məlum oldu ki, Azərbaycanda orta ixtisas pedaqoji təhsil müəssisələrinin təşəkkülü və inkişafının 1920-1991-ci illər mərhələsi kompleks şəkildə tədqiqat predmetinə çevrilməmiş, problemə sistemli yanaşma həyata keçirilməmişdir. Bu səbəbdən də "Azərbaycanda orta ixtisas pedaqoji təhsilin təşəkkülü və inkişafı (1920-1991-ci illər)" mövzusunda fəlsəfə doktoru dissertasiyası yazmaq zərurəti yarandı.

**Tədqiqatın obyektini** Azərbaycanda orta ixisas təhsilinin inkişafı təşkil edir.

**Tədqiqatın predmetini** 1920-1991-ci illərdə Azərbaycanda orta ixtisas pedaqoji təhsilin təşəkkülü və inkişafının əsas mərhələləri və tendensiyası təşkil edir.

**Tədqiqatın məqsədi** Azərbaycanda orta ixtisas pedaqoji təhsilin təşəkkülü və inkişafını şərtləndirən elmi-mədəni, pedaqoji amilləri müəyyənləşdirməkdən, hər mərhələnin əsas xüsusiyyətlərini və inkişaf meyillərini, yol verilən yanlışlıqların obyektiv və subyektiv səbəblərini üzə çıxarmaqdan, zəngin orta ixtisas pedaqoji təhsil ənənələrindən milli təhsil quruculuğunda istifadənin imkan və yollarını müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın vəzifələri aşağıdakılardır:**

- orta ixtisas pedaqoji təhsil müəssisələrinin təşəkkülü və inkişafını şərtləndirən ictimai-siyasi və sosial-pedaqoji mühiti təhlil etmək, pedaqoji təhsil problemlərini həmin dövrdə SSRİ-də həyata keçirilən dövlət təhsil siyasətinin ayrılmaz hissəsi olduğunu əsaslandırmaq;
- XX əsrin 20-80-ci illərində Azərbaycanda orta ixtisas pedaqoji təhsilin inkişaf xüsusiyyətlərini müəyyənləşdirmək;
- Azərbaycanda savadsızlığın ləğvində, ümumi icbari ibtidai təhsilin və ümumiyyətlə, mədəni inqilabın həyata keçirilməsində orta ixtisas pedaqoji təhsil müəssisələrinin rolunu üzə çıxarmaq;

- Böyük Vətən müharibəsi dövründə və ondan sonrakı quruculuq illərində orta ixtisas təhsilli pedaqoji kadr hazırlığındakı çətinliklərin obyektiv və subyektiv səbəblərini müəyyənləşdirmək;

- orta ixtisas pedaqoji təhsil müəssisələrində təhsilin məzmun, forma və metodlarının təkmilləşdirilməsi istiqamətlərini müəyyənləşdirmək;

- orta ixtisas pedaqoji təhsil müəssisələrinin strukturunu, nizamnaməsini və pedaqoji kadr hazırlığının keyfiyyət və kəmiyyət göstəricilərini təhlil etmək;

- müstəqillik illərində Azərbaycanda orta ixtisas pedaqoji təhsil müəssisələrinin modernləşdirilməsi istiqamətlərini araşdırmaq.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və prosesləri öyrənmək, dərk etmək, dəyişdirmək, sistemləşdirmək məqsədi ilə tətbiq olunan nəzəri müddəaların, prinsiplərin, metodların və vasitələrin məcmusu təşkil edir.

**Tədqiqatın metodları** aşağıdakılardır: analiz və sintez, ümumiləşdirmə, riyazi-statistik, sistemli yanaşma, bioqrafik metod, tarixi-müqayisə və b.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, Azərbaycanda orta ixtisas pedaqoji təhsilin təşəkkülü və inkişafını şərtləndirən elmi-mədəni, pedaqoji amillər təhlil edilir, hər mərhələnin əsas xüsusiyyətləri və inkişaf meyilləri, yol verilən yanlışlıqların obyektiv və subyektiv səbəbləri üzə çıxarılır, zəngin orta ixtisas pedaqoji təhsil ənənələrindən milli təhsil quruculuğunda istifadənin imkan və yollar müəyyənləşdirilir.

**Müdafiəyə təqdim olunan müddəalar:**

- Azərbaycanda orta ixtisas pedaqoji təhsil müəssisələrinin təşəkkülü və inkişafını ictimai-siyasi, elmi-mədəni və sosial-pedaqoji mühit şərtləndirmişdir.

- Azərbaycanda orta ixtisas pedaqoji təhsil müəssisələrinin inkişafı keçmiş İttifaqda həyata keçirilən dövlət təhsil siyasətinin ayrılmaz tərkib hissəsi olmuşdur.

- Azərbaycanda savadsızlığın ləğvində, ümumi icbari ibtidai təhsilin və ümumiyyətlə, mədəni inqilabın həyata keçirilməsində orta ixtisas pedaqoji təhsil müəssisələri mühüm rol oynamışdır.

- sovet-alman müharibəsi dövründə və ondan sonrakı quruculuq illərində orta ixtisas təhsilli pedaqoji kadr hazırlığındakı çətinlikləri obyektiv və subyektiv amillər şərtləndirmişdir.

- sovet hakimiyyəti illərində təhsil dövlətin ideoloji maraqlarının ifadəçisinə çevrilsə də orta ixtisas pedaqoji təhsil müəssisələrində təhsilin məzmun, forma və metodları daim təkmilləşdirilmiş, əvvəllər politexnik, sonralar isə humanist istiqamət gücləndirilmişdir.

- tədqiqat 70 illik bir dövrdə baş vermiş tarixi-pedaqoji hadisələri xronoloji ardıcıllıqla araşdırmağa, həmin dövrlərdə pedaqoji məktəblərdə tələbə və müəllim kollektivinin inkişaf dinamikasını və tədris prosesinin xüsusiyyətlərini izləməyə, təhsilin məzmun, təşkili forma və metodları ilə bağlı görülən işləri ümumiləşdirməyə, dövlətin orta ixtisas pedaqoji təhsil sahəsində yeritdiyi siyasətin mahiyyətini üzə çıxarmağa imkan vermişdir.

- orta ixtisas pedaqoji təhsil müəssisələrində 20-30 -cu illərdəki kəmiyyət göstəricisi, 60-70-ci illərdə keyfiyyət göstəricinə çevrildi, feminizasiya prosesi gücləndi, avtoritarizm nisbi sərbəstliklə, konservatizm isə novatorluqla əvəz edildi.

- müstəqillik illərində Azərbaycanda orta ixtisas pedaqoji təhsil müəssisələri modernləşdirildi, yeni adda, yeni məzmunda və yeni istiqamətdə fəaliyyətini davam etdirdi.

- orta ixtisas pedaqoji təhsil müəssisələrinin inkişafının 1920-1991-ci illər mərhələsinin sistemli və kompleks tədqiqi və müqayisəli təhlili mədəniyyət tariximizin zənginləşməsinə xidmət edir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Azərbaycanda orta ixtisas pedaqoji təhsilin təşəkkülü və inkişaf tendensiyasının müəyyənləş-dirilməsi, sistemli və kompleks tədqiqi və təhlili tarixi-pedaqoji irsi yeni elmi müddəalarla zənginləşdirə bilər.

**Tədqiqatın praktik əhəmiyyəti**. Azərbaycanda orta ixtisas pedaqoji təhsilin təşəkkülü və inkişaf tendensiyasının müəyyənləşdirilməsi, sistemli və kompleks tədqiqi və təhlili ilə bağlı materiallardan “Pedaqogika tarixi”, ”Azərbaycanda məktəb və pedaqoji fikir tarixi” fənlərinin tədrisində, ”Orta ixtisas təhsili oçerkləri”nin, “Təhsil Ensiklopediyası”nın və “Azərbaycan pedaqoji antologiyası”nın tərtibində istifadə etmək olar. Zəngin orta ixtisas pedaqoji təhsil ənənələrin-

dən milli orta ixtisas pedaqoji təhsil quruculuğunda istifadə imkanlarının müəyyənləşdirilməsi tədqiqatın praktik əhəmiyyətini artırır.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya ilə bağlı 1 monoqrafiya, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallarda 8 elmi məqalə nəşr olunmuş, Beynəlxalq və respublika səviyyəli konfranslarda məruzələr edilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, 10 paraqraf, nəticə və təkliflər, istifadə olunmuş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

Giriş – 10 səhifə, 19749 işarə, I fəsil – 20 səhifə, 40268 işarə (1.1 – 5 səhifə, 10802 işarə; 1.2 – 8 səhifə, 15931 işarə; 1.3 – 7 səhifə, 13483 işarə); II fəsil – 62 səhifə, 123898 işarə (2.1 – 25 səhifə, 47482 işarə; 2.2 – 14 səhifə, 28895 işarə; 2.3 – 10 səhifə, 21789 işarə; 2.4 – 13 səhifə, 25732 işarə), III fəsil – 34 səhifə, 68633 işarə (3.1 – 12 səhifə, 23154 işarə; 3.2 – 9 səhifə, 19295 işarə; 3.3 – 13 səhifə, 26184 işarə), nəticə və təkliflər – 4 səhifə, 7658 işarə, istifadə edilmiş ədəbiyyat siyahısı – 18 səhifə, əlavələr – 15 səhifə olmaqla dissertasiya işinin ümumi həcmi 165 səhifə, 260206 işarə təşkil edir.

## Tədqiqatın əsas məzmunu

"Giriş"də mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsədi, vəzifələri, metodoloji əsası, metodları müəyyənləşdirilir, elmi yeniliyi, müdafiə çıxarılan müddəalar, nəzəri və praktik əhəmiyyəti, abrabosiyası şərh edilir.

Dissertasiyanın birinci fəsli ***"Azərbaycanda orta ixtisas təhsili müəssisələrinin təşəkkülü və inkişafı (1920-1931-ci illər)"*** adlanır. *"Orta ixtisas pedaqoji təhsil müəssisələrinin təşəkkülü və inkişafını şərtləndirən ictimai-siyasi və sosial-pedaqoji mühit"* adlı ilk paraqrafda Avropada və Rusiyada orta ixtisas pedaqoji təhsil müəssisələrinin yaranması məsələsinə toxunulur. Əsaslandırılır ki, XIX əsrin 60-cı illərində Rusiyada müəllimlər seminariyası ən geniş yayılmış

təhsil ocaqlarından biri idi. K.D.Uşinski tərəfindən hazırlanan "*Müəllim seminariyasını layihəsi*" 1861-ci ildə nəşr olunmuşdu. Həmin layihəyə uyğun olaraq 1874-1899-cu illərdə Rüsiyada yeni 23 müəllimlər seminariyası açılmışdı. Qoridə (1876) və İrəvanda (1881) açılan seminariyalarda Azərbaycan şöbəsi nəzərdə tutulmamışdı. Ümumiyyətlə, Rusiyada müəllimlər seminariyaları və məktəblərinin regionlar üzrə bölgüsü düzgün paylanmamışdı. Paraqrafda 1876-cı ildə Gürcüstanın Qori şəhərində fəaliyyətə başlayan seminariyanın Azərbaycan şöbəsi (1879) haqqında, onun yaranmasındakı çətinliklərlə bağlı geniş məlumat verilir, fəaliyyətinin əsas istiqamətlərinə nəzər salınır. Bu da səbəbsiz deyil. Qeyd olunur ki, seminariyanın elmi şurasında və Azərbaycan müəllimlərinin I qurultayında müsəlman şöbəsinin Azərbaycana köçürülməsi məsələsi dəfələrlə müzakirə olunsa da ciddi irəliləyişə nail olmaq mümkün olmadı. Paraqrafda qısa da olsa İrəvan Müəllimlər Seminariyasının fəaliyyətinə toxunulur, İrəvanda azərbaycanlılar arasında təhsilin yayılmasındakı xidmətlərindən bəhs olunur.

Paraqrafda əsaslandırılır ki, ADR-in yaranması nəticəsində 1918-1919-cu illərdə Gəncə Müəllimlər Seminariyası milliləşdirildi, Bakıda darülmüəllimin və darülmüəllimat, Nuxada darülmüəllimin açıldı, Zaqatala, Ağdam və Şuşada belə müəssisələrin yaradılması qərara alındı. Prof. Sadıq Şükürovun təbrincə desək: "*Azərbaycan şəhərlərində açılan seminariyalar Qori Müəllimlər Seminariyasının "dəhlizindən" çıxmışdı*"[6].

Qori Müəllimlər Seminariyasının müsəlman şöbəsini Azərbaycana köçürmək mümkün oldu. Bu, mədəni hadisənin reallaşmasında Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Qori Müəllimlər Seminariyasının müsəlman şöbəsinin Azərbaycana köçürülməsi haqqında 22 iyun 1918-ci il tarixli qərarı mühüm rol oynadı. Milli hökumət bu məqsədələ Gəncə xəzinədarlığından maliyyə vəsaiti ayırdı və Gürcüstan hökuməti ilə əvvəlcədən razılığa gəldi. F.Köçərli həyatı bahasına Qori Müəllimlər Seminariyasının müsəlman şöbəsini Qazağa köçürməyə nail oldu. İlk vaxtlar seminariyaya tələbə toplamaq

[6] Şükürov S. Gəncə məktəblərinin tarixindən. Bakı, Maarif, 1990, s.69

üçün A.O.Çerniyayevskinin tələbə yığmaq təcrübəsindən istifadə edilirdi. Seminariyanın ilk müəllimləri Qori Müəllimlər Seminariyasının məzunları idi. Seminariyanın proqramı F.Köçərli tərəfindən yazılmışdı. Proqramda milli adət-ənənələr nəzərə alınmış, milli dövlətin tələblərinə uyğun müasirləşdirilmişdi. Qazax Müəllimlər Seminariyası 1921-ci ilə qədər Qori Müəllimlər Seminariyasının tədris plan vıə proqramı əsasında işləmişdir.

*"Azərbaycanda orta ixtisas pedaqoji təhsil müəssisələri şəbəkəsinin təşəkkülü və inkişafının ilkin mərhələsi"* adlı ikinci paraqrafda əsaslandırılır ki, sovet hakimiyyətinin ilk ilində ADR dövründə fəaliyyət göstərmiş Bakı, Gəncə, Qazax və Nuxa (Şəki) müəllimlər seminariyaları yenidən təşkil olundu. Qazax müəllimlər seminariyası 1921-ci ilə kimi Qori müəllimlər seminariyasının nizamnaməsi və Azərbaycan şöbəsinin tədris planı əsasında işlədi. 1920-ci ildə seminariyanın nəzdində qızlar üçün şöbə fəaliyyətə başladı. 1923-cü ildə Qazax müəllimlər seminariyasının ilk buraxılışı oldu. Bu illər ərzində seminariyanın 658 məzunu olmuşdur ki, onlardan da 592-si oğlan, 66 nəfəri isə qız olmuşdur[7]. Nuxa (Şəki) pedaqoji seminariyası ayrı-ayrılıqda qız və oğlan seminariyaları kimi fəaliyyət göstərmiş, 1926-cı ildə oğlan və qız seminariyaları birləşdirilərək müttəhid pedtexnikum adlandırılmış,1928-ci ildə M.F.Axundov adına Nuxa pedaqoji məktəbi, 1932-ci ildən İ.V.Stalin adına Nuxa pedaqoji məktəbi, 50-ci illərin ikinci yarısından sonra isə Şəki pedaqoji texnikumu kimi fəaliyyət göstərmişdi [171, 46]. Nuxa (Şəki) oğlan seminariyasının ilk direktoru Rəcəb Əfəndiyev, Nuxa (Şəki) qız seminarisının ilk direktoru Yusif Əfəndiyev (Türkiyədə təhsil almışdı) olmuşdur.

1920-ci ildə Bakıda yaradılan kişi seminariyası ilə qadın seminariyası birləşdirildi, Bakı Müttəhid (Birləşmiş) Pedaqoji Texnikum kimi fəaliyyətini davam etdirdi[8]. Birləşməyə qədər kişi seminariyasına Pənah Qasımov, qadın seminariyasına Mədinə xanım Qiyasbəyli rəhbərlik etmişdir. Seminariyalar birləşdirildikdən sonra pedaqoji

[7] Seyidov F. Maarifimizin təkrar xəzinəsi. Bakı, 2001,s.149

[8] Ağayev Ə.,Əliyev A. Böyük Sabirin adına layiq.Bakı, "Təhsil",1999, s 18

texnikumuna Pənah Qasımov direktor, Camo Cəbrayılbəyli tədris işləri üzrə direktor müavini təyin olundu.

1922-ci ilin noyabrında Naxçıvan şəhərində müəllimlər seminariyası fəaliyyətə başladı[9]. Xəlilağa Hacılarov (Tiflis Aleksandr İnstitutunun məzunu idi) seminariyanın direktoru, Əbdüləzim Rüstəmov isə müavin təyin edildi. 1923-1924-cü tədris ilində seminariya Naxçıvan Pedaqoji Texnikumuna çevrildi. 1924-cü ildə Naxçıvanda qadın seminariyası fəaliyyətə başladı, bir il sonra pedaqoji texnikuma çevrildi. Texnikumun ilk direktoru Fatma Əlizadə olmuşdur. 1923-1924-cü tədris ilində Quba, Lənkəran və Zaqatalada müəllimlər seminariyaları açıldı[10]. Həmin tədris ilində Gəncədə ikinci bir seminariya – Gəncə Türk (Azərbaycan) pedaqoji məktəbi açıldı. 1924-cü ildə Azərbaycanda 13 seminariya (8-i kişi, 5-i qadın) fəaliyyət göstərirdi ki, burada da 1704 nəfər tələbə təhsil alırdı. 1925-ci il martın 23-də Azərbaycan SSR Xalq Maarif Komissarlığının qərarı ilə "Texnikumlar haqqında" Əsasnaməsinə uyğun olaraq seminariyaların bazasında 1925-1926-cı tədris ilindən etibarən dördillik pedaqoji texnikumlar (6 kişi, 5 qadın) yaradıldı. Bir il sonra qız və oğlan seminariyaları birləşdirildi. Yeni Əsasnamədə texnikumlarda təhsil alan qızlar üçün qoyulan qadağaların aradan qaldırılması, pansionda yaşayan qızların oranı sərbəst tərk etməsinə, tətillərdə evlərinə getmələrinə icazə verilməsi tələbə kontingentinin artmasına ciddi təsir göstərdi. 1926-1927-ci tədris ilində pedaqoji texnikumlarda 2260 nəfər tələbə təhsil aldığı halda, cəmi bir il sonra onların sayı 2373 nəfər olmuşdu. 1920-1921-ci tədris ilində ölkədə 4 pedaqoji seminariya fəaliyyət göstərdiyi halda, 1927-1928-ci tədris ilində onların sayı 11- ə qədər artmışdı. Müvafiq olaraq həmin illərdə tələbələrin sayı 1069-dan 2373-ə yüksəlmişdi. 8 ildə texnikumların sayı 7, tələbələrin sayı isə 1304 nəfər artmışdı. Baxmayaraq ki, maliyyə çətinliyi nəticəsində 1926-cı ildə Gəncə axşam pedaqoji məktəbi bağlanmışdı.

---

[9] Cəfərov H. Naxçıvanda təhsil: inkişaf yolu və imkanları. Bakı: "Elm və təhsil", 2011, s.33

[10] Mərdanov M. Azərbaycan təhsil tarixi. I cild. Bakı: Təhsil, 2011, s.217

XX əsrin 20-ci illərdə orta ixtisas pedaqoji təhsil müəssisələrinin məzunları məktəb quruculuğunda, ibtidai təhsilin və mədəni inqilabın həyata keçirilməsində, yaşlı əhali arasında savadsızlığın ləğvində, kənd təsərrüfatının kollektivləşməsində, yeni cəmiyyətin ideoloji ehkamlarının təbliğat və təşviqat işlərinin genişlənməsində var qüvvələri ilə çalışmış, öz pedaqoji və ictimai vəzifələrini şərəflə yerinə yetirmişlər.

Fəslin üçüncü paraqrafı *"Orta ixtisas pedaqoji təhsil müəssisələrində təhsilin məzmun, forma və metodlarının təkmilləşdirilməsi"* adlanır. Burada əsaslandırılır ki, həmin dövrdə yeni məzmunlu tədris plan və proqramları yaratmaq, ana dilində dərs kitabları və tədris vəsaitləri yaratmaq ən aktual məsələlərdən biri idi. Dövlətin təhsil siyasəti yeni məzmun, yeni proqram, yeni təlim resursları və təbii ki, bunları reallaşdıra biləcək müəllim kadrları tələb edirdi. Bolşeviklər köhnə müəllimləri kapitalist mədəniyyətinin ziyalıları hesab edirdi.

1921-ci il oktyabrın 9-da Azərbaycan SSR Xalq Maarif Komissarlığının Kollegiyası "Müəllimlər Seminariyası haqqında Əsasnamə"ni və nizamnaməni təsdiq etdi. Əsasnamədə darülmüəllimin və darülmüəllimatlarda təhsil müddətinin 4 il olması, tədris, təlim və tərbiyə prosesinin təşkili qaydaları müəyyənləşdirildi. Yaşları 13-dən az, 16-dan artıq olmayan, 1 pillə məktəbləri bitirən, gələcəkdə müəllim vəzifəsi daşımaq istəyənlərin darülmüəllimin və darülmüəllimatlara qəbul olunması müəyyənləşdirildi. Elə həmin il Azərbaycan SSR Xalq Maarif Komissarlığının Kollegiyası müəllim seminariyalarının ilk tədris planını təsdiq etdi. Azərbaycan SSR Xalq Maarif Komissarlığının Kollegiyasında müəllim hazırlığındakı ikiillik təcrübə təhlil edildi, tədris planlarının yeni variantı təsdiq olundu. 1923-cü ildə pedaqoji seminariyalar yeni tədris planı ilə işləməyə başladılar. Bu tədris planı əvvəlkindən fərqlənirdi. Tədris planının strukturunda, saatların miqdarında, fənlərin adında və sayında fərqlilik var idi. Yeni hazırlanan məzmunda hər şey bolşeviklər partiyasının rəsmi və qeyri-rəsmi göstərişlərinə uyğunlaşdırılmışdı. 1925-ci ildə pedaqoji seminariyalar üçün yeni tədris planı təsdiq olundu. Sayca üçüncü olan bu tədris planının ömrü çox qısa oldu.

30-cu illərin əvvəllərində pedaqoji texnikumlar üçün hazırlanan yeni tədris planı elmin strukturunu, məntiqini mühafizə edən tədris fənləri üzrə formalaşdırıldı. Bu prinsip 30-cu illərin tarixi şəraiti ilə səsləşirdi.

Dissertasiyanın ikinci fəsli ***"Azərbaycanda icbari ibtidai təhsilin həyata keçirilməsi şəraitində orta ixtisas təhsilli pedaqoji kadr hazırlığı (XX əsrin 30-50-ci illəri)"*** adlanır. Fəslin "*Ümumi icbari təhsilin həyata keçirilməsi şəraitində orta ixtisas pedaqoji təhsil müəssisələrinin inkişafı"* adlı ilk paraqrafında 30-cu illərin I yarısında Azərbaycanda icbari ibtidai təhsilin həyata keçirilməsi ilə bağlı görülən işlər təhlil və tədqiq olunur. Azərbaycan SSR MİK və Xalq Komissarları Soveti 1928-ci il iyunun 9-da "Ümumi ibtidai təhsilin tətbiqi və şəbəkə komissiyaları haqqında" qərar qəbul etdi[11]. Həmin qərara uyğun olaraq yerli hakimiyyət orqanlarına məktəb şəbəkəsini genişləndirməklə yanaşı, uşaqları məcburi surətdə məktəbə cəlb etmələri ilə bağlı tədbir görmək tapşırıldı. 1928-ci ilin avqustunda Bakıda və şəhərin fabrik-zavod rayonunda icbari təhsil həyata keçirilməyə başlandı. ÜİK(b)P MK-nın 25 iyul 1930-cu il tarixli "Ümumi icbari təhsil haqqında" qərarı[12] və "Azərbaycan SSR-də ümumi ibtidai icbari təhsilin həyata keçirilməsi haqqında" Azərbaycan SSR XKS-nin 29 avqust 1930-cu il tarixli qərarı təhsil siyasətində yeni bir mərhələnin başlanğıcı oldu. Qərara əsasən 1930-1931-ci illərdə Azərbaycanın bütün şəhərlərində və şəhər tipli yaşayış məntəqələrində, 1931- 1932-ci illərdə isə bütün rayonlarında 8, 9, 10 yaşlı uşaqlar ümumi ibtidai icbari təhsilə cəlb edilməli idi. 1930/31-ci illərdə Gəncə, Salyan, Zaqatala, Nuxa və Şirvan bölgələrində tətbiq edilən icbari ibtidai təhsil 1932/33-cü təhsil illərində respublikanın bütün rayonlarında həyata keçirilməyə başlandı.

Azərbaycan XMK-nın 29 dekabr 1930-cu il qərarı ilə Ağdam, Xankəndi, Salyan, Şamaxı, Göyçay, Qaryagin (indiki Füzuli) şəhərlərində olan iki dərəcəli məktəblər, Ordubad kəndli gənclər məktəbi

---

[11] Обзор о деятельности правительства за 1927 и 1928 год. Баку, 1929, s. 330

[12] Məktəb və müəllim haqqında partiya və hökumət qərarları. Bakı:Azərnəşr, 1952, s. 25

pedaqoji məktəblərə çevrildi. 1931-1932-ci tədris ilində Hadrud, Astarxanbazar (Cəlilabad), Sabirabad və Laçın pedaqoji məktəbləri təşkil olundu. 1928/1929 – 1932/1933-cü tədris illərində respublikanın orta ixtisas təhsil müəssisələrində 8182 nəfər kadr hazırlanmışdı ki, bunların da böyük əksəriyyəti pedaqoji məktəblərin məzunları idi. 1932-ci ildə Şamaxıda pedaqoji məktəb təşkil olundu. Məktəb görkəmli Azərbaycan şairi M.Ə.Sabirin adını daşıyırdı.

30-cu illərin əvvəllərində qiyabi pedaqoji texnikumlar öz fəaliyyət sferalarını genişləndirdilər. Bəzi texnikumların nəzdində pedaqoji kurslar açılmışdı. Məsələn, Nuxa (Şəki) Pedaqoji Texnikumunun nəzdində müəllim, məktəbəqədər tərbiyəçi, pioner işçiləri hazırlamaq üçün 8 aylıq kurslar açılmışdı.

Əgər 1934/1935-ci tədris ilində respublikanın pedaqoji texnikumlarda 5854 nəfər tələbə təhsil alırdısa, 1936-cı ildə onların sayı xeyli artaraq 7534 nəfər çatdı. Artımın əsas səbəblərindən biri də SSRİ Xalq Maarif Komissarlığının pedaqoji texnikumların quruluşu haqqında 4 iyul 1932-ci il tarixli qərarına əsasən pedaqoji texnikumlarda təhsil müddəti 4 ildən 3 ilə endirməsi ilə bağlı idi[13]. 2 illik müəllimlər institutlarının yaradılması ilə əlaqədar olaraq respublikadakı pedaqoji texnikumların bəziləri birləşdirildi. 1940-cı ildə Sabirabad və Lənkəran pedaqoji texnikumları bağlandı. 1941-ci ildə Qusar pedaqoji texnikumu Quba pedaqoji texnikumu ilə birləşdirildi. 1935/1936-cı tədris ilində Laçın pedaqoji texnikumu, 1935-ci ildə Astarxanbazar Pedaqoji Texnikumu bağlandı. 1937-ci ildə isə Naxçıvan Pedaqoji Texnikumu Ordubad şəhərinə köçürüldü. Pedaqoji texnikumların birləşdirilməsinin əsas səbəblərindən biri kifayət qədər ibtidai sinif müəllimi hazırlamaqları ilə bağlı idisə, digər tərəfdən 2 illik müəllimlər institutlarının yaradılması bu tip məktəblərin birləşdirilməsini tələb edirdi. 5 il müddətində, yəni 1936-1941-ci il arasında pedaqoji texnikumlar respublikamız üçün 11875 nəfər orta pedaqoji təhsilli müəllim kadrları hazırlamışdı.

[13] Məktəb və müəllim haqqında partiya və hökumət qərarları.Bakı:Azərnəşr,1952, 168 s.

Bu sahədə Kirovabad (Gəncə), Qazax, Ağdam, Qaryagin (Fizuli), Şuşa, M.Ə.Sabir adına Bakı pedaqoji texnikumlarının fəaliyyətləri xüsusilə diqqətəlayiq olmuşdur. Qazax pedaqoji texnikumu müəllim hazırlığında 2-ci yerdə dururdu.

Həmin illərdə Muxtar Respublikanın Ordubad şəhərində yeni pedaqoji texnikum açıldı. 1937-1939-ci tədris ilində fəaliyyətə başlayan həmin texnikumun direktoru vəzifəsinə Mehdi Mehdiyev təyin edilmişdi. 30-cu illərdə Muxtar Respublikada pedaqoji kadr hazırlığında Naxçıvan və Ordubad pedaqoji texnikumları səmərəli fəaliyyət göstərmişdir. 1940-1941-ci illərdə Naxçıvan Pedaqoji Texnikumunu 94, Ordubad Pedaqoji Texnikumunu 92 nəfər bitirərək pedaqoji fəaliyyətə başladılar. 1941-ci ildə Naxçıvan Pedaqoji Texnikumu Ordubad Pedaqoji Texnikumu ilə birləşdirildi. Bu qərarın verilməsini şərtləndirən əsas səbəb Naxçıvanda Müəllimlər İnstitutunun yaradılması olmuşdu.

XX əsrin 30-40-cı illərində orta ixtisas pedaqoji təhsil müəssisələrinin ölkədə yeni tip ziyalılar nəslinin formalaşmasında mühüm rolu oldu. Təhsil sahəsində baş vermiş mütərəqqi dəyişiklik ölkədə ədəbi-mədəni mühitin canlanmasına, mətbuat, teatr, ədəbiyyatın inkişafına ciddi təkan verdi.

*"Böyük Vətən müharibəsi dövründə və ondan sonrakı quruculuq illərində Azərbaycanda orta ixtisas təhsilli pedaqoji kadr hazırlığı"* adlı ikinci paraqrafda orta ixtisas pedaqoji təhsil müəssisələrinin unifikasiyasından bəhs olunur. Azərbaycan SSR Xalq Komissarları Sovetinin 21 avqust 1941-ci il tarixli qərarı ilə Bakı Xalq Təhsili Şöbəsinin 2 №-li məktəbi ilə M.Ə.Sabir adına pedaqoji məktəb, Bakı Mədəni-Maarif və Kitabxanaçılıq texnikumları, Nuxa (Şəki) Siyasi Maarif və pedaqoji məktəbləri birləşdirildi. Repressiya illərində böyük itkilərə məruz qalmış Nuxa Pedaqoji Texnikumunda tədris-tərbiyə işlərinin təşkilinə müharibə ağır zərbə vurmuşdu. Maliyyə və kadr potensialı zəif olduğundan Qusar, Salyan və Naxçıvan pedaqoji məktəbləri bağlandı.

40-cı illərin ikinci yarısında pedaqoji kadr hazırlığını təkmilləşdirmək məqsədilə bir sıra təxirəsalınmaz işlər görüldü. Hər şeydən əvvəl, qəbul planları artırıldı. O da etiraf edilməlidir ki, həmin dövr-

də hazırlıqlı tələbə kontingenti yığmaq böyük problem idi. Bəzən texnikumlara ayrılan plan yerlərini doldurmaq mümkün olmurdu. Ümumiyyətlə isə, 1941-1945-ci illərdə respublikanın orta ixtisas məktəblərində 30190 nəfər tələbə təhsil alırdı ki, onlardan da 23,7%-i pedaqoji məktəblərdə oxuyurdu[14]. Orta ixtisas pedaqoji məktəblə-rində ibtidai siniflər üçün 3273 nəfər müəllim hazırlanmışdı.

SSRİ Ali Sovetinin II çağırış birinci sessiyasında qəbul edilən 18 mart 1946-cı il tarixli "1946-1950-ci illərdə SSRİ xalq təsərrüfatının bərpası və inkişafının beşillik planı haqqında" Qanunu və Azərbaycan SSR Ali Sovetinin 15 avqust 1946-cı ildə qəbul etdiyi eyni adlı Qanun respublikada təhsil müəssisələrinin, o cümlədən orta ixtisas təhsilli pedaqoji kadr hazırlığının yeni məzmunda və yeni istiqamətdə inkişafını təmin etdi. 1947/1948-ci tədris ilində Ağdam Pedaqoji Məktəbində, 1948/1949-cu tədris ilində Nuxa (Şəki) Pedaqoji Texnikumunda pioner baş dəstə rəbbəri hazırlayan şöbələr yaradıldı.

1948-ci ildə İrəvan pedaqoji məktəbi 220 nəfərlik kontingenti ilə Azərbaycan SSR-in Xanlar rayonuna köçürüldü. Bu, SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları[15] ilə Azərbaycan xalqına qarşı növbədə tarixi cinayətin nəticəsində baş vermişdi. 1947/1948-ci tədris ilində respublikada 17 pedaqoji məktəb (M.Ə.Sabir adına Bakı pedaqoji məktəbi, Lənkəran pedaqoji məktəbi, Bakı XMŞ-nin Pedaqoji Məktəbi, Ağdaş Pedaqoji Məktəbi, Şamaxı Pedaqoji Məktəbi, Kirovabad (Gəncə) Pedaqoji Məktəbi, Şuşa Pedaqoji Məktəbi, Quba Pedaqoji Məktəbi, Qaryagin Pedaqoji Məktəbi, Laçın Pedaqoji Məktəbi, Göyçay Pedaqoji Məktəbi, Zaqatala Pedaqoji Məktəbi, Qazax Pedaqoji Məktəbi, Xanlar Pedaqoji Məktəbi, Ordubad Pedaqoji Məktəbi, Ağdam Pedaqoji Məktəbi, Nuxa (Şəki) Pedaqoji Məktəbi) fəaliyyət göstərirdi. Təlim Azərbaycan dilində olan 12 pedaqoji məktəb regionlarda, təlim həm rus, həm də Azərbaycan dilində olan 3 pedaqoji məktəb Bakı şəhərində yerləşirdi. Kirovabad (Gəncə) və Şuşa

---

[14] Mərdanov M. Azərbaycan təhsil tarixi. II cild. Bakı: Təhsil, 2011, s.280
[15] Deportasiya.Azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiyası. Bakı,1998, s.14

pedaqoji məktəblərində Azərbaycan şöbəsi ilə yanaşı erməni şöbəsi də fəaliyyət göstərirdi.

50-ci illərin axırlarında orta ixtisaslı pedaqoji kadr hazırlığında diqqəti cəlb edən əsas məsələ ali və orta ixtisas təhsili müəssisələrinə vahid rəhbərliyi həyata keçirmək, onlara elmi-metodiki cəhətdən kömək göstərmək, təhsil-tərbiyə prosesini tənzimləmək məqsədilə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Komitəsinin təşkili idi. 26 sentyabr 1960-cı ildə Komitənin Əsasnaməsi təşkil olundu. O dövrdə cəmi 10 pedaqoji məktəb fəaliyyət göstərirdi.

Fəslin *"Orta ixtisas pedaqoji təhsil müəssisələrində təhsilin məzmununun təkmilləşdirilməsi (30-50-ci illər)"* üçüncü paraqrafında XX əsrin 30-50-ci illərində orta ixtisas pedaqoji məktəblərində təhsilin məzmununun təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilir. Əsaslandırılır ki, həmin mərhələdə orta ixtisas təhsilli müəllim kadrlarının hazırlığını həyata keçirən pedaqoji texnikumların tədris planları dəfələrlə dəyişdirlmiş, təkmilləşdirilmiş, elmilik, sistematiklik, ardıcıllıq, varislik prinsiplərinin tələblərinə uyğun formalaşdırılmışdır.

Azərbaycan Xalq Maarif Komissarlığının Kollegiyası 26 oktyabr 1933-cü ildə pedaqoji texnikumların nizamnaməsini və yeni tədris planlarını təsdiq etdi. Nizamnamədə pedaqoji texnikumun quruluşu, orta ixtisas təhsili müəssisələrində tədris işlərinin təşkili, tədris ilinin müddəti, müəllim hazırlığı, idarəetmə sistemi, tələbə qəbulu, rejim və digər məsələlər öz əksini tapdı.

Müharibə illərində pedaqoji məktəblərin tədris planı üç dəfə (1941/1942, 1942/1943, 1944/1945) dəyişikliyə məruz qaldı. Dəyişiklik ciddi xarakter daşımırdı. Tədris planlarında dövrün tələblərinə uyğun olaraq hərbi və bədən tərbiyəsi fənlərinə ayrılan saatlar artırılmış, ayrı-ayrı fənlərə ayrılan saatlarda fərq yaranmışdı. Ümumi təhsil fənnlərinə verilən saatlar artırılmışdı. Yeni tədris plan və proqramları əvvəlkilərə nisbətən stabilliyyi ilə diqqəti cəlb edirdi. Əgər 1920-ci ildən 1930-cu ilə qədər tədris plan və proqramları hər il pedaqoji texnikumların özləri tərəfindən yenidən tərtib olunurdusa, 1930-cu ildən 1948-ci ilə qədər tədris plan və proqramları 6 dəfə dəyişdirilmişdi. 1948/49-cu tədris ilindən 1965-ci ilə qədər orta ixtisas pedaqoji təhsi-

lin məzmununda ciddi dəyişiklik edilməmişdi. Həmin tədris plan və proqramları 17 il ərzində, əsasən, stabil qalmışdır.

30-50-ci illərdə Azərbaycanda fəaliyyət göstərən pedaqoji məktəblərdə təhsilin məzmunu təkmilləşdirilmiş, dövrün tələbinə uyğun olaraq yeni tədris planları, proqramları və dərsliklər hazırlanmışdır.

Fəslin "*Orta ixtisas pedaqoji təhsil müəssisələrində təlimin təşkilinin forma və metodlarının təkmilləşdirilməsi (30-50-ci illər)*" adlı dördüncü paraqrafında XX əsrin 30-50-ci illərində orta ixtisas pedaqoji məktəblərindətəlimin təşkilinin forma və metodlarının təkmilləşdirilməsi məsələləri öyrənilir. Pedaqoji texnikumlarda təlimin ənənəvi təşkili forması olan dərsdən imtina edilməsinin səbəbləri və təlimin dalton-plan formasında təşkilinin xüsusiyyətləri araşdırılır.

Pedaqoji məktəblərdə müəllim hazırlığının son mərhələsi olan pedaqoji təcrübənin təşkilinə ciddi diqqət yetirilirdi. Tələbələr məktəb emalatxanalarında, ipək fabriklərində, kolxozlarda işləmişlər, ictimai işlər və iməciliklər keçirilmişdir. Riyaziyyat, fizika və ictimaiyyət dərslərindən əlavə məşğələlər keçirilməsi mənimsəmə işinə yardım etmişdir.

Pedaqoji məktəblərin inkişaf strategiyasının müəyyənləşdirilməsində pedaqoji şuralar, pedaqoji komissiyalar, metodiki şuralar (fənn komissiyaları) mühüm rol oynayırdı. Pedaqoji məktəblərdə təlimin keyfiyyətinin yüksəldilməsi ilə bağlı aparılan sistemli və ardıcıl iş az sonra öz bəhrəsini verdi.

Tədqiq olunan dövrdə orta ixtisas məktəblərində tədris-metodiki işlər tək-milləşdirildi, pedaqoji məktəblər üçün dördillik təhsil müddəti müəyyən olundu, semestr sisteminə keçildi, yeni tədris planları və proqramları hazırlandı, şagirdlərin illik və həftəlik dərs normaları nizama salındı. Deməli, 30-50-ci illərdə təlimin təşkilinin əsas təşkili forması olan dərs üstünlük qazandı, təlimin prosesində müəllimin şərhi, müsahibə, illüstrasiya və demonstrasiya, laborator məşğələ, çalışma, praktik iş, dərslik və kitab üzərində iş və s. metodlarından geniş istifadə olundu. Pedaqoji məktəblərin 1 sinfində (kursunda) siyasi fənlərin tədrisində I-III siniflərdə isə pedaqogika, psixologiya fənlərinin tədrisində mühazirə metodundan da istifadə olunurdu.

Dissertasiyanın sonuncu fəsli ***“Azərbaycanda orta ixtisas pedaqoji təhsil müəssisələri yeni inkişaf mərhələsində (1960-1991-ci illər)”*** adlanır. Fəslin *“Orta ixtisas pedaqoji təhsil müəssisələrinin inkişafı: birləşməni zəruri edən səbəblər”* adlı paraqrafında XX əsrin 60-80-ci illərində Azərbaycanda orta ixtisas pedaqoji təhsil müəssisələrinin inkişaf istiqamətləri təhlil edilir, unifikasıyanı zəruri edən səbəblər araşdırılır. Əvvəlki illərlə müqayisədə 50-ci illərin axırlarında ibtidai sinif müəllimi hazırlayan orta ixtisas məktəblərinin sayında xeyli azalma müşahidə olunur. Bunun da əsas səbəbi 1958-1959-cu tədris ilində V.İ.Lenin adına ADPİ-də ali təhsilli ibtidai sinif müəllimi hazırlığına başlanılması idi[16]. Bu da təbii ki, ibtidai sinif müəllimi hazırlığını həyata keçirən pedaqoji məktəblərin kontingentinin azalmasına səbəb oldu. 1959-1960-cı tədris ilində müəllim kadrları hazırlığında böyük ənənələri olan Kirovabad (Gəncə), Qazax, Göyçay və Ağdam pedaqoji məktəbləri bağlandı [40].

1965-ci ildə Bakı məktəbəqədər pedaqoji texnikumu M.Ə.Sabir adına Pedaqoji Məktəbin müvafiq şöbəsi əsasında yenidən təşkil olundu. Həmin ildə Kirovabad (Gəncə) şəhərində də məktəbəqədər pedaqoji texnikum təşkil olundu[17]. 1966-1970-ci illərdə Əli Bayramlıda (indiki Şirvan) və Ağdamda ümumtəhsil məktəblərinin ibtidai sinifləri üçün müəllim kadrları hazırlayan pedaqoji məktəblər açıldı. Bu da təbii ki, pedaqoji məktəblərdə təhsil alanların sayının artmasına səbəb oldu. 1961-1962-ci tədris ilində 9 pedaqoji məktəbdə 2654, 1965-1966-cı tədris ilində 10 pedaqoji məktəbdə 5598 nəfər oxuduğu halda, 1970-1971-ci tədris ilində 13 pedaqoji məktədə 7059 nəfər şagird (tələbə) təhsil alırdı. 70-ci illərdə respublikada təhsil sisteminin inkişafı, ümumi icbari orta təhsilə keçid, təhsilin məzmununun və metodlarının təkmilləşdirilməsi sahəsində sistemli və ciddi işlər görülməyə başlandı. Bu, hər şeydən əvvəl, Ulu Öndər Heydər Əliyevin 14 iyul 1969-cu ildə Azərbaycan KP MK-nın I katibi seçilməsi ilə bağlı idi.

---

[16] Məmmədov Y.Azərbaycan Dövlət Pedaqoji Universiteti-90. Bakı:Təhsil,2012, s.82

[17] Azərbaycan Respublikası Dövlət Tarix Arxivi: F..57,siy.16,iş. 76,v.99

80-ci illərin əvvəllərindən başlayaraq respublikada pedaqoji məktəblərin sayı və tələbə kontingenti ildən-ilə azaldı. 1980-1981-ci tədris ilində 8 pedaqoji məktəbdə 5800,1985-1986-ci tədris ilində 7 pedaqoji məktəbdə 5200, 1987-1988-ci tədris ilində 4 pedaqoji məktəbdə 3200, 1988-1989-cu tədris ilində 4 pedaqoji məktəbdə 2700 tələbə təhsil alırdı[18].

XX əsrin 60-80-ci illərində Azərbaycanda orta ixtisas pedaqoji təhsil müəssisələri inkişafının yeni mərhələsini yaşadı. 70-80-ci illərdə orta ixtisas təhsilinin əyani formasının inkişafı sürətləndi, təlimin keyfiyyətinə tələblər artdı. Pedaqoji məktəblər ümumtəhsil məktəblərinin ibtidai sinifləri və məktəbəqədər tərbiyə müəssisələri üçün yüksəkixtisaslı kadr hazırlığında qarşılarına qoyulan vəzifələri uğurla yerinə yetirdilər.

*"Orta ixtisas pedaqoji təhsil müəssisələrində təhsilin məzmununun təkmilləşdirilməsi"* adlı ikinci paraqrafda əsaslandırılır ki 60-cı illərdə orta ixtisas pedaqoji məktəblərində tədris prosesinin təkmilləşdirilməsi sahəsində əhəmiyyətli işlər görüldü, dövrün tələbinə, cəmiyyətin sosial sifarişinə uyğun olaraq pedaqoji məktəblər üçün yeni tədris planları, proqramları hazırlandı, tələbələrin tədris yükünün nizama salınmasına təşəbbüs göstərildi.

60-cı illərin əvvəllərində pedaqoji məktəblər üçün təsdiq edilən tədris planları 70-ci illərin əvvəllərinə kimi bəzi dəyişikliyi nəzərə almasaq, əsasən, stabil qaldı. Pedaqoji məktəblərin "Ümumtəhsil məktəblərinin ibtidai siniflərində tədris" ixtisasında geniş profilli kadr hazırlığına başlanması ilə əlaqədar olaraq yeni tədris planı (1982) təsdiq olundu.

Fəsli *"Orta ixtisas pedaqoji təhsil müəssisələrində təlimin təşkilinin forma və metodlarının təkmilləşdirilməsi"* adlı son paraqrafında əsaslandırılır ki, 60-80-ci illərdə Azərbaycanda orta ixtisas pedaqoji təhsilin məzmun, forma və metodlarının təkmilləşdirilməsi sahəsində xeyli işlər görüldü. 60-80-ci illərdə orta ixtisas məktəblərində təlimin aşağıdakı təşkilat formalarından istifadə edilirdi: "dərs, eks-

---

[18] Народное образование и культура в ССР. Статистический сборник, Москва, 1989, стр.140

kursiya, laborator-praktiki məşğələlər, seminar məşğələləri, kurs və diplom layihələndirmə, fakultativ məşğələlər, fənn və texniki yaradıcılıq dərnəkləri, tələbələrin müstəqil ev işləri, konsultasiyalar, geri qalan və zəif oxuyan tələbələrlə qrup və fərdi məşğələlər"[19]. Təlimin səmərəliliyi metod və priyomların düzgün tətbiqindən bilavasitə asılıdır. Araşdırmalar göstərir ki, orta ixtisas pedaqoji təhsil müəssisələrində təlimin şifahi (nəqletmə, izah, söhbət, mühazirə), əyani (müşahidə, nümayişetdirmə) və praktik (çalışma, tapşırıq, qrafik və təcrübi işlər) metodlarına üstünlük verilmişdir.

60-80-ci illərdə də Azərbaycan təhsil sisteminin mühüm bir həlqəsi olan orta ixtisas pedaqoji təhsil müəssisələri pedaqoji kadr hazırlığında mühüm yer tutmuşdur.

Tədqiqat zamanı aşağıdakı **nəticələrə** gəlinmişdir.

-Tədqiqatda Azərbaycanda orta ixtisas təhsilli müəllim hazırlığı ölkədəki pedaqoji kadr hazırlığının mühüm bir hissəsi kimi təhlil və təqdim edilir, onun inkişaf yolları müəyyənləşdirilir və inkişafının mühüm bir mərhələsinin tarixi yaradılır.

- XX əsrin 20-ci illərdə orta ixtisas pedaqoji təhsil müəssisələrinin məzunları məktəb quruculuğunda, ibtidai təhsilin və mədəni inqilabın həyata keçirilməsində, yaşlı əhali arasında savadsızlığın ləğvində, kənd təsərrüfatının kollektivləşməsində, yeni cəmiyyətin ideoloji ehkamlarının təbliğat və təşviqat işlərinin genişlənməsində var qüvvələri ilə çalışmış, öz pedaqoji və ictimai vəzifələrini şərəflə yerinə yetirmişlər.

- XX əsrin 20-ci illərində pedaqoji seminariyalarda təhsilin məzmununu müəyyənləşdirmək, dövrün tələblərini özündə ehtifa edən tədris plan və proqramları yaratmaq, ana dilində dərs kitabları və tədris vəsaitləri yaratmaq ən aktual məsələlərdən biri idi. Sovet pedaqoji təhsilinin məzmununu müəyyənləşdirmədən, onun tədris müəssisələrində həyata keçirilməsini təmin etmədən Azərbaycanda yeni yaranan məktəbləri möhkəmləndirib inkişaf etdirmək mümkün olmazdı.

---

[19] Əliyev S.Orta ixtisas məktəblərində təlim-tərbiyə prosesinin təşkilinin əsasları.Bakı: Maarif,1989, s 84

- XX əsrin 20-ci illərinin sonu, 30-cu illərin I yarısı Azərbaycanda ümumi icbari ibtidai təhsilin həyata keçirilməsi ilə səciyyəvidir.İcbari ibtidai təhsilə keçilməsi ciddi çətinliklərlə müşaiyət olunurdu. Çətinliklərlərin əsas səbəblərindən biri məktəb binalarının çatışmazlığı, digəri isə pedaqoji kadrların sayının azlığı və metodiki hazırlığının zəif olması ilə bağlı idi. Bu çatışmazlığı aradan qaldırmaq məqsədilə Azərbaycanda orta ixtisas pedaqoji təhsil müəssisələrinin geniş şəbəkəsi yarandı.

- XX əsrin 30-cu illərində Azərbaycanda orta pedaqoji ixtisas təhsilli kadrların hazırlığında mükəmməl bir sistem yaranmışdı. 20-ci illərdə kadr hazırlığında özünü göstərən sistemsizlik, pərakəndəlik, məzmunun tez-tez dəyişməsi, zəruri elmi-pedaqoji və metodiki ədəbiyyatın yoxluğu aradan qaldırılmışdı. Pedaqoji texnikumlar öz işlərini ölkədə gedən icbari ibtidai təhsilin həyata keçirilməsinə istiqamətləndirilmişdilər. İkiillik müəllimlər institutlarının yaradılması ilə əlaqədar olaraq pedaqoji texnikumların bəziləri bağlandı və ya birləşdirildi.

- 30-cu illərdə müəllim kadrlarına olan ciddi ehtiyaca baxmayaraq, pedaqoji texnikumlarda tədris prosesi hüquqi-normativ sənədlərə əsasən tənzimlənirdi. Tələbələrin seçiminə, tədris prosesinin təşkilinə, təlim-tərbiyə işlərinin cəmiyyətin tələblərinə uyğun qurulmasına ciddi fikir verilirdi. Tədris prosesindəki uğursuzluq tələbələrin texnikumlardan xaric olunması ilə nəticələnirdi. Pedaqoji texnikumların məzunları öz işlərini ibtidai siniflərdə dərs deməklə bitmiş hesab etmir, cəmiyyətdə gedən ictimai-siyasi proseslərdə yaxından iştirak edir, yaşlı əhalinin təhsilə cəlb olunmasında, sovet dövlətinin təhsil siyasətinin yerlərdə həyata keçirilməsində nəinki fəallıq, hətta fədakarlıq göstərirdilər.

- 30-40-cı illərdə ali təhsilli müəllim kadrları hazırlığında kəmiyyət və keyfiyyət dəyişikliyinin baş verməsi pedaqoji texnikumların müəllim kadrları və tədris-metodiki ədəbiyyatla təminatında da mühüm rol oynayırdı. Ali pedaqoji məktəbin tələbələri üçün nəzərdə tutulan dərslik və dərs vəsaitlərindən pedaqoji texnikumlarda istifadə olunurdu.

- Böyük Vətən müharibəsi Azərbaycanı bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də ciddi sınaq qarşısında qoydu. Müharibənin ağırlıqları təhsil müəssisələrinin pedaqoji kadr potensialına, maddi-texniki bazasına, təlim-tərbiyənin keyfiyyətinə ciddi zərbə vurdu. Pedaqoji kadr hazırlığını həyata keçirən ali və orta ixtisas təhsili müəssisələrinin ən yaxşı müəllim və tələbələrinin böyük bir hissəsi cəbhəyə səfərbər olundu. Orta ixtisas pedaqoji təhsil müəssisələrində təlim müddəti azaldıldı, qısaldılmış (ixtisar edilmiş) proqramlarla pedaqoji kadr hazırlığına başlandı.

- Müharibənin qələbə ilə ilə başa çatması orta ixtisas təhsilli pedaqoji kadr hazırlığında yeni perspektivlər açdı. Müharibənin ehtiyacları üçün alınmış ümumtəhsil, orta ixtisas və ali məktəblərin binaları geri qaytarıldı. Ölkədə təhsil iqtisadi və mədəni quruculuğa istiqamətləndirildi. Ölkədəki iqtisadi çətinliklərə baxmayaraq, müəllimlərin maddi və mənəvi cəhətdən həvəsləndirilməsi prosesi davam etdirildi.

- 40-cı illərin ikinci yarısında ümumtəhsil məktəblərində aparılan məzmun dəyişikliyi pedaqoji məktəblərdə də ciddi dəyişikliyə səbəb oldu. Pedaqoji məktəblərdə təhsil müddəti bir artırıldı. Təlim müddətinin 4 ilə qaldırılması ibtidai siniflər üçün daha keyfiyyətli müəllim kadrları hazırlamaq məqsədi daşıyırdı.

- Pedaqoji texnikumlarda tədrisin keyfiyyəti, dövrün tələbinə uyğun ibtidai sinif, bədən tərbiyəsi və tərbiyəçi-müəllimlərin hazırlığı peşəkar pedaqoji kollektivin formalaşdırılması ilə bir başa bağlı idi. Bu prosesi 20-30-cu illərdə olduğu kimi, 40-cı illərdə də tənzimləmək mümkün olmadı.

- Müharibədən sonrakı illərdə orta ixtisas pedaqoji təhsil müəssisələrində kadr hazırlığında əvvəlki illərlə müqayisədə diqqətəlayiq keyfiyyət dəyişikliyi baş verdi. Məktəblərdə şagird kontingentinin artması pedaqoji məktəblər şəbəkəsinin, həmçinin kadr hazırlığı aparılan ixtisasların siyahısının genişləndirilməsini şərtləndirdi; əvvəllər bağlanılan pedaqoji məktəblər yenidən açıldı, əmək, rəsm, rəsmxətt, musiqi və nəğmə müəllimlərinin hazırlığına başlanıldı.

- Ümumtəhsil məktəblərinin ibtidai siniflərində aparılan ciddi məzmun dəyişikliyi pedaqoji məktəblərdə təhsilin məzmununun də-

yişdirilməsini və təkmilləşdirilməsini zəruri etmişdir. Pedaqoji kadr hazırlığının məzmun, forma və metodlarının inkişafı ölkənin ictimai və siyasi həyatının həddindən artıq ideologiyalaşdırılması şəraitində gedirdi

- 20-ci illərdə olduğu kimi, 30-40-cı illərdə də pedaqoji məktəblərdə şagirdlərin biliyinin qiymətləndirilməsinin dəqiq sistemi mövcud deyildi. Pedaqoji məktəblərdə şagirdlərin biliyinin attestasiyası zamanı orta və ya ali məktəb təcrübəsi nümunə kimi götürülürdü. Qiymətləndirmənin vahid sisteminin olmaması istər nəticələrə, istərsə də bütün tərbiyə prosesinə mənfi təsir göstərirdi. Pedaqoji məktəblərdə şagirdlərin ictimai-kütləvi peşələrə yiyələnmələrinə böyük diqqət yetirilirdi. Gələcək müəllimlərin ictimai həyatda fəal iştirakını təmin etmək məqsədilə onlara kütləvi bədən tərbiyəsi işlərinin təşkilinə, özfəaliyyətə, foto və kino işlərinə dair bilik və vərdişlər verilirdi.

- Sinifdənxaric işlərin təşkilinin məzmunu və metodları müxtəlif idi: siyasi məlumat, iclaslar, məruzələr, mühazirələr, divar qəzetləri, ictimai-faydalı iş, dərnək işi, fənn olimpiadalarının keçirilməsi, bədii gecələrin təşkili, özfəaliyyət, sual-cavab gecələri, oxucu konfransları, kinoteatrlara gediş, ekskursiyalar, sərgilərə gediş və s. pedaqoji məktəblərdə xor, dram, pedaqoji, tarix, coğrafiya, bədii qiraət, bitkiçilik, gənc naturalist, musiqi, xalq alətləri, bədən tərbiyəsi və idman dərnəkləri fəaliyyət göstərirdi. Müxtəlif dərnəklərdə birləşən tələbələr məktəblərin ictimai-siyasi, pedaqoji həyatında yaxından iştirak edir,rəngarəng tədbirlərin təşkilatçısı kimi çıxış edirdilər.

- 30-50-ci illərdə təlimin təşkilinin əsas təşkili forması olan dərs üstünlük qazandı, təlimin prosesində müəllimin şərhi, müsahibə, illüstrasiya və demonstrasiya, laborator məşğələ, çalışma, praktik iş, dərslik və kitab üzərində iş və s. metodlarından geniş istifadə olundu.

- XX əsrin 60-80-ci illərində Azərbaycanda orta ixtisas pedaqoji təhsil müəssisələri inkişafının yeni mərhələsini yaşadı. 70-80-ci illərdə orta ixtisas təhsilinin əyani formasının inkişafı sürətləndi, təlimin keyfiyyətinə tələblər artdı.

- 60-70-ci illərdə orta ixtisas pedaqoji məktəblərində tədris prosesinin təkmilləşdirilməsi sahəsində əhəmiyyətli işlər görüldü, döv-

rün tələbinə, cəmiyyətin sosial sifarişinə uyğun olaraq yeni tədris planları, proqramları hazırlandı, tələbələrin tədris yükünün nzama salınmasına təşəbbüs göstərildi. Bu da səbəbsiz deyildi, elmi-texniki inqilab nəticəsində maddi və mənəvi həyat şəraitindəki dəyişikliklər, sürətlə gedən yeniləşmə prosesi orta ixtisas pedaqoji təhsil müəssisələrindən öyrənmək və öyrətmək qabiliyyətini daim təkmilləşdirməyi, ictimai tərəqqinin ən yüksək meyarlarına cavab verən pedaqoji kadr hazırlamağı tələb edirdi.

- 60-80-ci illərdə orta ixtisas pedaqoji təhsil müəssisələrində istifadə olunan tədris planları normativ fənlərlə zənginləşdirilməsi istiqamətində dəyişməsi şagirdlərin xeyli yüklənməsinə səbəb oldu, proqramlaşdırılmış təlimə həddən artıq aludəçilik baş verdi, tədris prosesi ideolojiləşdirildi;
- pedaqoji təhsil müəssisələrinin kontingentinin və pedaqoji kadrların feminizasiya prosesi gücləndi;
- tədris prosesində təlimin texniki vasitələrindən istifadə genişləndi;
- birinci kurs şagirdləri üzərində yuxarı kurs şagirdlərinin, dərs əlaçılarının, komsomol fəallarının fərdi və kollektiv hamiliyi ənənəsi yarandı;
- rus dilinin öyrənilməsinə diqqətin güclənməsi, müvafiq olaraq, milli dilin və mədəniyyətin öyrənilməsinin zəifləməsinə səbəb oldu.
- 80-ci illərdə pedaqoji prosesin və təhsil müəssisələrinin idarə edilməsində şagirdlərin hüquqları genişləndirildi.

Deməli, orta ixtisas pedaqoji təhsil müəssisələri (seminariya, texnikum, pedaqoji məktəb, kollec) Azərbaycanda milli təhsilin təşəkkülü və inkişafına, pedaqoji kadr hazırlığına, dövlətin təhsil siyasətinin (savadsızlığın ləğvi, icbari ibtidai təhsilin və mədəni inqilabın reallaşdırılması) həyata keçirilməsinə təhsil ənənələrinin qorunub saxlanılmasına, elmi-mədəni və təhsil mühitinin yaranmasına dəyərli töhfə vermişdir. Ona görə də pedaqoji kollecləri birdəfəlik bağlamaqdansa ali təhsil müəssisələri ilə birləşməsini sürətləndirmək daha səmərəli ola bilər. Azərbaycan Dövlət Pedaqoji Kolleci ADPU-nun nəzdinə verildiyi kimi, digər pedaqoji kolleclər də müvafiq ali peda-

qoji təhsil müəssisələrinin tabeliyinə verilməsi bu sahədə əsaslı dönüş yarada bilərdi. Regionlarda fəaliyyət göstərən pedaqoji kolleclər ali təhsil müəssisələri ilə uzun müddətli müqavilələr əsasında birgə kadr hazırlığı apara bilər. Ali pedaqoji təhsil müəssisələrinin nəzdindəki kolleclərin subbakalavrlarına müəyyən kreditləri topladıqları üçün bakalavriaturanın müvafiq kurslarına daxil olmaq imkanı verilməsi pedaqoji ali təhsil müəssisəsinə inteqrasiyanı gücləndirmiş olardı.

Tədqiqatın nəticələri ilə bağlı iddiaçının **aşağıdakı əsərləri** nəşr edilmişdir:

1. Qurbanova V.Ş. Azərbaycanda orta ixtisas pedaqoji təhsil müəssisələrinin yaranmasını şərtləndirən amillər // Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu Naxçıvan Dövlət Universiteti Naxçıvan Müəllimlər İnstitutu "Tədris prosesinin təkmilləşdirilməsi və müasir təhsil konsepsiyaları" Beynəlxalq elmi konfransın materialları Naxçıvan şəhəri, 16-17 dekabr 2014 cü il, s. 206-207.

2.Qurbanova V.Ş. XX əsrin 20-ci illərində Azərbaycanda müəllim kadrları hazırlığında orta ixtisas pedaqoji təhsil müəssisələrinin rolu // Azərbaycan Dövlət Pedaqoji Universiteti. Pedaqoji Universitet Xəbərləri. (pedaqoji-psixoloji elmlər bölməsi). Bakı: 2015, № 3, s. 375-378

3. Qurbanova V.Ş. XX əsrin 30-cu illərində Azərbaycanda orta ixtisas pedaqoji təhsilin məzmununun təkmilləşdirilməsi // Azərbaycan Respublikası Təhsil Nazirliyi. Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu Elmi əsərlər. Cild 83,№3, s. 168-172

4. Qurbanova V.Ş. XX əsrin 40-50-ci illərində Azərbaycanda orta ixtisas pedaqoji təhsilin məzmununun təkmilləşdirilməsi // Qızlar Universiteti Elmi Əsərlər. 2016, №3, s. 65-70

5. Qurbanova V.Ş. Azərbaycanda orta ixtisas təsili müəssisələrində müəllim hazırlığı problemi (XX əsrin 20-ci illəri). Sumqayıt Dövlət Universiteti "Müəllim-tələbə münasibətləri: pedaqoji və psixoloji aspektlər" Respublika elmi konfransının materialları (27-28 oktyabr 2016 cı il) Sumqayıt:2016, s. 200-202

6.Qurbanova V.Ş. Azərbaycanda orta ixtisas pedaqoji təhsil müəssisələrinin inkişafı (1930-1934 -cü illər). Gənc tədqiqatçıların IV-cü beynəlxalq elmi konfransı.Materiallar. Qafqaz Universiteti, 29-30 aprel 2016. II kitab. Bakı, Azərbaycan, 2016, s.1534-1535

7. Гурбанова В.Ш. Развитие образования в регионах Азербайджана. Историческая роль средних специальных педагогических учебных заведений в воплощении в в жизнь общего обязательного образования в регионах Азербайджана. Образование на протяжении всей жизни: разнообразие идей, концепций, форм, методов, технологий. Международная монография по итогам акций «Неделя образования взрослых 2012-2016». Санкт-Петербург, 2016, с.86-90

8. Qurbanova V.Ş. Azərbaycanda orta ixtisas təhsilli müəllim kadrları hazırlığı: unifikasiyanı zəruri edən səbəblər (XX əsrin 40-cı illəri) // Gəncə Dövlət Universiteti Elmi Xəbərlər. Gəncə 2016, №2, s. 242-246

9. Qurbanova V.Ş. Azərbaycanda orta ixtisas pedaqoji təhsil müəssisələrinin təşəkkülü // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri. Naxçıvan: 2016, Cild: 12, № 1,s.16-21

10. Qurbanova,V.Ş. İcbari ibtidai təhsilin həyata kecirilməsi ilə əlaqədar Azərbaycanda pedaqoji orta ixtisas təhsil müəssisələrinin inkişafı (1930-1934 -cü illər) // Məktəbəqədər və ibtidai təhsil. (elmi metodik jurnal) 2016, №3,s.14-18

11. Qurbanova V.Ş. Azərbaycanda orta ixtisas pedaqoji təhsil müəssisələrinin inkişafı (XX əsrin 30-cu illərinin 2-ci yarısında) // Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Slavyan Universiteti, Elmi əsərlər. (ictimai siyasi elmlər seriyası). Birgə nəşr. Bakı - Minsk, 2016, s. 239-246

12. Qurbanova V.Ş. Azərbaycanda orta ixtisas pedaqoji təhsilin dövrləşməsi problemi / Azərbaycan Respublikası Təhsil Nazirliyi. Lənkəran Dövlət Universiteti "Müasir dünyada inteqrasiya və elmin aktual problemləri" mövzusunda keçirilən Respublika elmi konfransının materialları 22-23 dekabr 2017-ci il. Lənkəran: 2017, s.287

13. Гурбанова В.Ш. Роль средних специальных педагогических учебных заведений в воплощении в жизнь общего обязательного образования в регионах Азербайджана // «Вестник» Ленинградского Государственного Университета имени А.С.Пушкина Научный журнал. Санкт Петербург, 2017, №4, с.333-337

14.Qurbanova V.Ş. 1920-1991-ci illərdə Azərbaycanda orta ixtisas pedaqoji təhsili: təşəkkülü, inkişaf tendensiyaları və problemləri // "Əbdül Əlizadə: ənənəvi təhsildən təfəkkür məktəbinə" Respublika elmi-praktik konfransının materialları. Bakı: ADPU, 2017, s. 263-265

15.Qurbanova V.Ş. XX əsrin 30-40 cı illərində Azərbaycanda orta ixtisas təhsilli müəllim kadrları hazırlığının əsas istiqamətləri // Azərbaycan məktəbi (elmi-nəzəri, pedaqoji jurnal). Bakı:2017, №2, s. 66-72

16. Qurbanova V.Ş. Azərbaycanda orta ixtisas pedaqoji təhsil müəssisələrinin təşəkkülü və inkişafı (1920-1991-ci illər). Monoqrafiya. Bakı: Elm və təhsil, 2018, 268 s.

17. Гурбанова В.Ш. Развитие средних специальных учебных заведений в Азербайджане в 60-х годах XX века // LX international correspondence scientific and practical conference "European research: innovation in science, education and technology". London, UK. February 10-11,2020,p.51-53

18. Гурбанова В.Ш.Совершенствование форм и методов организации обучения в средних специальных педагогических учебных заведениях //«Современная наука», № 7. Москва: 2023, № 7, с.51-56

19. Qurbanova V.Ş. Müasir inklüziv təhsilin mahiyyəti və məzmunu // "İnklüziv təhsildən inklüziv cəmiyyətə". II Beynəlxalq elmi-praktiki konfrans. Bakı: BSU, 2024, s.361-362

Dissertasiyanın müdafiəsi 16 may 2025-ci il tarixdə saat $12^{00}$-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1000, Bakı, Ü.Hacıbəyli küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 16 aprel 2025-ci il tarixdə zəruri ünvanlara göndərilmişdir.



Çapa imzalanıb: 14.04.2025
Kağızın formatı: $60 \times 84^{1/16}$
Həcm: 47770
Tiraj: 100